# Berkli Kaliforniya Universiteti

**Yerləşir:** ABŞ, Kaliforniya ştatı, Berkli şəhəri
**Yaranma tarixi:** 1868-ci il
**Tipi:** Dövlət
**Müəllimlərin ümumi sayı:** 3392 nəfər
**Tələbələrin ümumi sayı:** 38204 nəfər
**Rəsmi saytı:** www.berkeley.edu

Berkli Kaliforniya Universiteti (University of California, Berkeley) ABŞ-ın Kaliforniya ştatının Berkli şəhərində yerləşir. Universitet ABŞ-ın "U.S. News & World Report" jurnalının reytinq sıralamasında dövlət ali məktəbləri arasında birinci yerdədir. Böyük Britaniyanın "Times Higher Education" jurnalının 2016-cı il üzrə dünyanın ən nüfuzlu universitetlərinin siyahısında 6-cı, "QS University Rankings" 26-cı, ABŞ-ın milli universitetləri reytinqində 20-ci yerdədir. Universitet eyni zamanda ətraf mühitin mühafizəsi ixtisas hazırlığı sahəsində 2016-cı il "QS World University Rankings by Subject" reytinqində 1-ci yeri tutub. Berkli Kaliforniya Universiteti Amerikanın ən yaxşı 20 ali məktəbi sırasında yer alan yeganə dövlət təhsil müəssisəsidir.



## Tarixi

1866-cı ildə özəl Kaliforniya Kolleci maliyyə çətinliyi səbəbindən dövlət tabeliyindəki Kənd Təsərrüfatı, Dağ-Mədən Sənayesi və Mexaniki İncəsənətlər kollecləri ilə birləşdirilərək Kaliforniya Universiteti yaradılıb. 1868-ci il martın 23-də Kaliforniya ştatının qubernatoru Henri Heyt Kaliforniya Universitetinin yaradılması haqqında nizamnamə imzalayıb. 1870-ci ilədək universitetin prezidenti vəzifəsini professor Con Le Kont icra edib, daha sonra Regentlər Şurası bu vəzifəyə özəl Kaliforniya Kollecinin yaradıcısı Henri Dyurantı seçib. Universitetin açılışı 1869-cu ilin sentyabrında müvəqqəti olaraq Oklend şəhərində yerləşən binada baş tutub. Regentlər Şurasının qərarına əsasən qızlar oğlanlarla birgə universitetdə təhsil almaq hüququna malik olublar. 1873-cü ildə universitet 167 oğlan və 222 qız tələbəsi ilə Berkli şəhərində yeni tikilən Cənub və Şimal binalarına köçüb. Bu illərdə universitet tədricən inkişaf edib, yeni-yeni korpuslar açılıb, proqramlar qəbul edilib. II Dünya müharibəsi zamanı Qlenn Sibborq plutoniumu gizli kəşf edib və bundan sonra Kaliforniya Universitetinin fizika üzrə professoru Ernest Orlando Lourens Amerika ordusu ilə saziş imzalayaraq Radioloji Laboratoriyasında atom bombası hazırlamağa başlayıb. 1942-ci ildə universitetin professoru Robert Oppenqeymer Manhetten Layihəsinə elmi rəhbər təyin edilib. Beləliklə də İkinci Dünya müharibəsi dövründə universitetin fizikləri atom və hidrogen bombasının yaradılması tədqiqatlarına cəlb olunublar. Lourens Berkli Milli Laboratoriyası ilə yanaşı universitet 1943-cü ildən Los-Alamos Milli, 1952-ci ildən isə Lourens Livermor Milli laboratoriyaları ilə əməkdaşlıq etməyə başlayıb. Kaliforniya Universitetində oğlan tələbələrə mütləq hərbi hazırlıq dərsləri tədris olunub, II Dünya müharibəsi dövründə isə bu ənənə daha da möhkəmləndirilib.1949-cu ildə Regentlər Şurası antikommunist andı içir və universitetin bütün işçi heyəti də buna məcbur edilib. Bu məsələyə etiraz edən müəllimlərin isə maaşı kəsilib. Yalnız 10 il keçdikdən sonra onlar məvaciblərini almağa müvəffəq olublar. 1952-ci ildə Kaliforniya Universitetinin kampusları nisbi sərbəstlik qazanıb. Berkli şəhərindəki kampus da müstəqil fəaliyyət göstərməyə və Berkli Kaliforniya Universiteti adlandırılmağa başlayır. Professor Klark Kerr Berkli Kaliforniya Universitetinin ilk kansleri olub. 1960-cı illərdə Berkli Kaliforniya Universiteti söz azadlığının təmin olunduğu məkan kimi tanınıb. 1964-cü ildə burada Vyetnamda gedən müharibəyə, 1969-cu ildə isə Xalq Parkı üçün universitet ərazisinin istifadəsinə qarşı tələbə aksiyası keçirilib. Lakin ABŞ Milli Qvardiyasının köməyi ilə aksiyanın qarşısı alınıb. Bununla yanaşı, yerli amerikalılar (hindular) ali məktəbin Antropologiya muzeyindən orada saxlanılan qalıqların repatriasiyasını tələb edir, heyvanların mühafizəsi ilə məşğul olan şəxslər professor-müəllim heyətini heyvanlar üzərində elmi təcrübə aparmaqda günahlandırır, yerli icmalar universitetin tikinti işlərinə və rəssam-heykəltəraşların istifadəsi üçün ağacların qırılmasına etiraz ediblər.

## Universitet bu gün

Berkli Kaliforniya Universitetinin kampusu təxminən 5 kv.km ərazini əhatə edir. Həmin ərazinin 3,2 kv.km-i Ekologiya qoruğu, Botanika bağı və Strouberri Kanyonu istirahət mərkəzinə, 0,8 kv.km-i Lourens Berkli Milli Laboratoriyasına aiddir. Əsas kampusun şimalında müəllimlərin yaşadığı yüksək səviyyəli yaşayış rayonlarının olduğu Berkli-Hills, doktorant və tədqiqatçıların məskunlaşdığı Nortsayd rayonu yerləşir. Əsas kampusun cənubunda isə tələbə yataqxanalarının, mağazaların, restoran və kafelərin olduğu Teleqraf Avenyu rayonu mövcuddur. Bu ali təhsil ocağının kampusu meşə massivləri ilə zəngindir. Meşələrdə Şimali Amerikanın ən hündür yarpaqlı ağac növlərinə rast gəlmək mümkündür. Berkli Kaliforniya Universitetinin ən qədim binaları 1873-cü ildə viktorian-empirik üslubda tikilmiş Sout Holl və Frederik Olmstedin inşa etdiyi Pidmont Avenyudur. Universitetin kampusundakı binaların 20-dən çoxu professor-memar Con Hovard Qalen tərəfindən inşa edilib. Burada klassik üslubda tikilmiş Herst Yunan Teatrı, Herst Memorial Dağ-mədən binası, Memorial kitabxana, Uiller, Le Kont, Gilman, Hevilend binaları, qotik üsluba aid Dvinell, Stivens və s. binaları mövcuddur. Məşhur Sater qapısı və 94 m hündürlüyündə Sater qülləsi Berkli Kaliforniya Universitetinin əsas kampusunun girəcəyində yerləşir. Universitet haqqında dərc olunan materiallarda məhz bu memarlıq nümunəsinin şəkilləri əksini tapır. Hovardın müəllifi olduğu tikililər tarixi memarlıq abidələri kimi dövlət tərəfindən qorunur. Berkli Kaliforniya Universitetinin çoxlu sayda böyük yataqxanaları var və onlar tələbələrdən başqa işçi heyət üçün də nəzərdə tutulub. Əsas kampusdan cənubda birinci kurs tələbələri üçün 4 yataqxana kompleksi - Unit 1, 2, 3 və Klark Kerr yerləşir. Bu kompleksin yaxınlığındakı Çanninq-Bouditç və İda Cekson binalarında isə yuxarı kurs tələbələri qalır. Klark Kerr yataqxanasının yanında yerləşən geniş və rahat yataqxanalarda isə daha çox idmançı və fiziki qüsuru olan tələbələr məskunlaşıb. Əsas kampusun şərqində Futhill, qızlar üçün Stern, oğlanlar üçün qədim Boulz yataqxanaları yerləşir. Ailəli tələbələr üçün iki qrup yataqxana mövcuddur: Universitet kəndi və Smit-Fernvald. Universitet kəndi Kaliforniya ştatının Olbani şəhərciyindədir, Smit-Fernvald yataqxanası isə köhnəldiyindən bu il onun sökülməsi planlaşdırılır. Yataqxanalarda yüksək sürətli İnternet şəbəkəsinə qoşulmuş 1, 2 və daha çox otaqlar, kitabxana, oxu zalı, kompüter otaqları, yeməkxanalar, idman, konsert zalları tələbələrin istifadəsindədir. Berkli Kaliforniya Universitetinin nəzdində 14 kollec və məktəb fəaliyyət göstərir. Kolleclərdə bakalavrlarla yanaşı magistr və doktorantlar da təhsil ala bilərlər, məktəblər isə yalnız magistr və doktorantlar üçün nəzərdə tutulub. Kollec və məktəblərə Filologiya və Elmlər Kolleci, Təbii Resurslar Kolleci, Ekoloji Dizayn Kolleci, Mühəndislik Kolleci, Kimya Kolleci, Haas Biznes Məktəbi (MBA proqramlarının təşkili üzrə ölkədə birinci yerləri tutur), Qoldman Dövlət Siyasəti Məktəbi, Hüquq Məktəbi, Optometriya Məktəbi, İctimai Səhiyyə Məktəbi (ictimai səhiyyə magistri (MPH) və ictimai səhiyyə doktoru (Dr.PH) dərəcələri təklif edir), Sosial Təminat Məktəbi, İnformasiya Məktəbi, Jurnalistika Ali Məktəbi (jurnalistika magistri (MJ) dərəcəsi verir), Təhsil (Pedaqogika) Ali Məktəbi aiddir. Berkli Kaliforniya Universitetinin kitabxana sisteminə 32 kitabxana daxildir. Bu, sahəsinə görə dünyanın ən böyük kitabxana kompleksidir. 2008-ci ildə Berkli Kaliforniya Universitetinin kitabxanası Şimali Amerika universitetləri kitabxanaları arasında ən yaxşı kütləvi elmi tədqiqatlar kitabxanası seçilib. Ümumilikdə kitabxana sisteminə 10 milyondan çox kitab, 90000 dövri nəşr, 415900 kitabça, 5 milyon mikrofilm, 410000 xəritə, 109000 hökumət sənədi, 60000 səsyazma və 6350 video daxildir. Əsas kolleksiya yeraltı Qardner Meyn Stek və Moffit Bakalavriat kitabxanalarında toplanıb. Universitetin üç əsas kitabxanası Doe, Moffit və Bankroftdur. Doe kitabxanasında universitetin iki ən böyük oxu zalı olan Şimali və Heyns (Şərqi) zalları yerləşir. Berkli Kaliforniya Universitetində zəngin kolleksiyaya malik Fibi Herst Antropologiya, Essiq Entomologiya, Paleontologiya, Onurğalılar Zoologiya muzeyləri, İnsan Təkamülü Tədqiqat Mərkəzi, Botanika bağı, Universitet və Cepson Herbari Mərkəzi fəaliyyət göstərir. Sakit okean Film Arxivində 10000-dən çox film saxlanılır. Ümimilikdə universitetdə 3392 müəllim çalışır. Berkli Kaliforniya Universitetində 1000-ə yaxın tələbə qrupu var. Universitetdə "The Daily Cal" müstəqil tələbə qəzeti, 2005-ci ildə açılmış CalTV televiziya yayımı, KALX FM radiosu fəaliyyət göstərir. Universitetin idman komandaları "Kaliforniyanın qızıl ayıları" adlandırılır. İdman növlərindən burada xüsusi ilə futbol, basketbol, beysbol, softbol, gimnastika, su polosu, reqbiyə daha çox üstünlük verilir.

## İdarəçilik

Universitet 26 üzvdən ibarət Himayadarlar Şurası tərəfindən idarə olunur. Onlardan 18 nəfəri 12 il müddətinə Kaliforniya ştatının qubernatoru tərəfindən təyin olunur. Universitetdə kansler vəzifəsi 1952-ci ildən təyin olunmağa başlayıb. 2013-cü ildə Himayədarlar Şurası tərəfindən Nikolas Dirks universitetin 10-cu kansleri təyin olunub. N.Dirksə birbaşa tabe olan 12 vitse-kansler var. Ali məktəbdə icraedici vitse-kansler və rektor əsas akademik məmurlar hesab olunur ki, onlara da öz növbəsində universitetin strukturuna daxil olan 14 kollec və məktəbin dekanları tabedir. Universitetdə sənədlərin qeydiyyatı oktyabr ayında başlayır. Sənəd qəbulu prosesi isə noyabrın 1-dən 30-dək davam edir. Noyabrın 30-dan sonra təqdim olunmuş ərizələr qəbul olunmur. Universitetə qəbul iki mərhələdən keçir - sənədlərin ali məktəbin müəyyən etdiyi tələblərə uyğunluğu yoxlanılır və seçim aparılır. Universitet abituriyentlərinin sayı 50 min nəfərə çatıb. Onlardan yalnız 25 faizi ali məktəbə qəbul oluna bilir.



Berkli Kaliforniya Universitetinin professoru Lütfi-Zadə

## Büdcəsi və təhsil haqqı

Berkli Kaliforniya Universitetində təhsil haqları Amerikanın 10 ən yaxşı dövlət ali məktəblərindən fərqli olaraq aşağıdır. 2015-2016-cı tədris ilində Berkli Kaliforniya Universitetində bakalavr pilləsində təhsil alan yerli tələbələrin təhsil haqqı 35000, magistratura pilləsində təhsil haqqı isə 27000 ABŞ dolları olub. Digər zəruru xərclər də nəzərə alınsa illik təhsil xərcləri 57234 dollar təşkil edir. Berkli Kaliforniya Universitetində 2015-2016-cı tədris ilində 38204 tələbə təhsil alıb. Onlardan 25951 nəfər bakalavr, 10253 magistr səviyyəsi üzrə təhsil alıb. Əcnəbi tələbələr bütün tələbələrin 13,7 faizini təşkil edir ki, onların da 40,7 faizi asiyalılardan ibarətdir. Universitetə qəbul olan tələbələrin ixtisasdan və təhsil ilindən asılı olaraq 71,7-91 faizi ali məktəbi diplomla bitirir. 2015-ci tədris ilində universitetin endaument fondunun həcmi 4.045 milyard dollara çatıb. Fond əsasən, valideynlərin və məzunların maliyyə yardımı nəticəsində vəsait toplayır. Ümumiyyətlə, Berkli Kaliforniya Universiteti üçün fondun gəlirlərinin yüksək olması daha önəmlidir, şəxsi gəlirləri hesabına universitet sürətli inkişafını təmin edir. Berkli Kaliforniya Universitetində maddi durumu çətin olan tələbələrə təhsil haqlarını ödəmələri üçün kredit və təqaüdlər təklif edilir. Bununla yanaşı əlaçı, yaradıcı, istedadlı tələbələr də müxtəlif məbləğli təqaüd və mükafatlara layiq görülürlər.



Universitetin kitabxanası

## Universitetin məşhur məzunları

Berkli Kaliforniya Universiteti özünün müəllim və tələbələri və onların aniliyyətləri ilə fəxr edir. Berkli Kaliforniya Universitetinin müəllim və məzunları arasında ümumilikdə Nobel mükafatına layiq görülmüş 77 şəxs var. Onlardan 7 nəfər hazırda universitetdə müəllimlik edir. Universitetin məzunlarından 77 müəllim Fulbrayt proqramının təqaüdçüləri, 103 nəfər olimpiya oyunlarının qızıl, 47 nəfər gümüş, 33 nəfər bürünc medalçısıdır. Hazırda universitetdə 3 Filds, 4 Plutser, 32 Maks-Artur Fondununun mükafatçıları, 3 Tyurin mükafatı laureatı, ABŞ-ın milli elmi medallarının sahibləri olan 13 nəfər dərs deyir. Ali məktəbdə işləyən müəllimlərdən 141 nəfər



Universitetin 2016-cı il məzunları

ABŞ Milli Elmlər Akademiyasının üzvüdür. Məzunlardan "Apple", "Intel", "Google", "MySpace", "Adobe Systems", "Electronic Arts", "VMware", "HTC Corporation", "Qualcomm", "Sun Microsistems" kampaniyalarının yaradıcıları və rəhbərlərini qeyd etmək olar. Universitetin məşhur məzunlarından Lourentin Brinkhorst (Niderlandın xanım şahzadəsi), Haakon Maqnus (Norveçin varis şahzadəsi), Zülfüqar Əli Bhutto (Pakistanın sabiq prezidenti), Fransisko Madero (Meksikanın sabiq prezidenti), Migel Anhel Rodriges (Kosta-Rikanın sabiq prezidenti), Sun Fo (Çin Respublikasının sabiq Baş naziri), Robert MakNamara ("Ford Motor" kompaniyasının sabiq prezidenti), Stiv Vozniak ("Apple" kompüterinin həmtəsisçisi), Qordon Mur ("İntel" yarımkeçirici şirkətinin həmtəsisçisi), Erik Şmidt ("Google Inc" kompaniyasının icraçı direktoru) adlarını çəkmək olar. Universitet Nobel mükafatı almış məzunları ilə də məşhurur. Nobelçi alimlərdən Oliver Uilliamson, Tomas Şellinq, Corc Akerlof, Daniel MakFadden, Amartya Sen (iqtisadiyyat üzrə), Karol Qreyder, Endryu Faye, Sidney Brenner, Rendi Şekman (tibb üzrə), Ernest Lavrensy, Con Meter, Luis Alvarez, Devid Qross, Saul Perlmutter (fizika üzrə), Con Hovard, Alan Higer, Melvin Calvin, Tomas Keç (kimya üzrə), Çeslav Miloş (ədəbiyyat üzrə) göstərmək olar.

Universitetin məşhur məzunları sırasında görkəmli azərbaycanlı alim, süni intelellekt sahəsində qeyri-səlis məntiq nəzəriyyəsinin banisi, Kaliforniya Berkli Universitetinin professoru Lütfi Zadə də var. 1947-ci ildə Lütfi Zadə məşhur alim, kibernetikanın atası hesab olunan Norbert Vinerin tövsiyəsi ilə Kaliforniyaya, Berkli Universitetinə gəlib. 1959-cu ildən Berkli Universitetində professor, 1963-cü ildən isə "Elektrik mühəndisliyi və kompüter elmləri" kafedrasına rəhbərlik edib. O, bu ali təhsil müəssisəsinin ömürlük professoru seçilmiş yeganə şəxsdir. Hazırda professor L.Zadə universitetdə Soft Computing İnstitutunun direktoru kimi fəaliyyət göstərir. ABŞ-ın Berkli şəhərində İnformasiya Texnologiyası üzrə Zadə İnstitutu yaradılıb.

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*